AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 44 (1444), 3 - 9 dekabr 2019-cu il

Qəzet 2001-ci ildən çıxır.

## *Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Pakistan İslam Respublikasının Əyalətlərarası Koordinasiya Nazirliyi arasında idman sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin*

### Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Pakistan İslam Respublikasının Əyalətlərarası Koordinasiya Nazirliyi arasında idman sahəsində əməkdaşlıq haqqında 2019-cu il oktyabrın 21-də Bakı şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Pakistan İslam Respublikası Hökumətinə bildiriş göndərsin.

*İlham Əliyev*

*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 27 noyabr 2019-cu il.*




## Azad Rəhimov Türk Şurası Gənclər və İdman nazirlərinin 4-cü iclasında iştirak edib

Qırğızıstanın paytaxtı Bişkek şəhərində Türk Şurası Gənclər və İdman nazirlərinin 4-cü iclası keçirilib. Qırğızıstanın Gənclərlə İş, Bədən Tərbiyəsi və İdman Dövlət Agentliyinin direktoru, Qırğızıstanın İnformasiya və Sosial İnkişaf naziri, Türkiyənin Gənclər və idman naziri, Özbəkistanın Bədən Tərbiyəsi və idman nazirlərinin iştirak etdiyi tədbirdə, Azərbaycan Respublikasını Gənclər və İdman naziri Azad Rəhimovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

*(ardı 2-ci səhifədə)*

## Beynəlxalq Gimnastika Federasiyasının bayrağı Azərbaycan nümayəndə heyətinə təqdim edilib

Beynəlxalq Gimnastika Federasiyasının (FIG) bayrağı Tokioda Azərbaycan nümayəndə heyətinə təqdim edilib. Yaponiyanın paytaxtında keçirilən batut gimnastikası üzrə 34-cü dünya çempionatının finalında FİG-in bayrağı Azərbaycan Gənclər və İdman Nazirliyinin gimnastika üzrə kuratoru Elçin Qasımova və Azərbaycan Gimnastika Federasiyasının idman meneceri Fatimə Şəfizadəyə təqdim olunub. Azərbaycan 2021-ci ilin noyabrında batut gimnastikası üzrə növbəti dünya çempionatına ev sahibliyi edəcək.



## Buxarestdə Avro-2020-nin final mərhələsinin püşkatma mərasimi keçirilib

### *Türkiyə, Uels və İsveçrə yenidən Bakıya gələcək*

Noyabrın 30-da Buxarestdə futbol üzrə 2020-ci ildə keçiriləcək Avropa çempionatının (Avro-2020) final mərhələsinin püşkü atılıb. Püşkün nəticələrinə əsasən, Türkiyə millisi İtaliya, Uels və İsveçrə yığmaları ilə birlikdə A qrupunda yer alıb. Danimarka, Finlandiya, Belçika və Rusiya seçmələri B, Hollandiya, Ukrayna, Avstriya və UEFA Millətlər Liqasının A, yaxud D liqasının qalibi olacaq komanda C qrupunda mübarizə aparacaqlar. D qrupunda İngiltərə, Xorvatiya, Çexiya və Millətlər Liqasının C liqasının qalibi yarışacaqlar. İspaniya, İsveç, Polşa və B liqasının qalibi olacaq komanda E qrupunda yer alıblar. Sonuncu - F qrupunda isə Millətlər Liqasının A və ya D Liqasının qalibi, Portuqaliya, Fransa və Almaniya seçmələri qarşılaşacaqlar.




*(ardı 3-cü səhifədə)*

## Anons

*Güləşçimiz ALROSA Kubokunda qələbə qazanıb*
Səh. 2

"Bakı Şəhər Halqası" multimedia müsabiqəsinə start verib
Səh. 2

XXI Respublika Spartakiadasının qalibi olan komanda mükafatlandırıldı
Səh. 2

*Multikulturalizm Azərbaycanda həm həyat tərzidir, həm də dövlət siyasətidir*
Səh. 5

Tanqonun ritmləri altında...
Səh. 6

Olimpiya Oyunlarından xatirələr
Səh. 7

## Olimpizm

### Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Macarıstanın Baş Naziri ilə görüşüb

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax Macarıstanın Baş Naziri Viktor Orbanla görüşüb. Beynəlxalq qurumun mənzil qərargahında keçirilən görüşdə Tokio-2020 Yay Olimpiya Oyunlarına hazırlıq məsələləri müzakirə olunub.

Macarıstanın Baş Naziri T.Baxa təşəkkür edərək onun rəhbərlik etdiyi qurumun dünyada nəcib missiya həyata keçirdiyini bildirib.

Qarşıdan gələn olimpiadaya hazırlıq məsələlərinin müzakirə olunduğu görüşdə qitədə idmanın inkişafı naminə Avropa idman modelinin qorunmasının vacibliyindən də danışılıb. Onlar Macarıstanda və paytaxt Budapeştdə keçiriləcək bir sıra yüksək səviyyəli idman tədbirləri, o cümlədən qarşıdakı dünya və Avropa çempionatları ilə bağlı fikir mübadiləsi aparıblar.

Görüşdə BOK-un üzvləri, Olimpiya çempionları Daniel Gyurta (üzgüçülük) və Pal Şmit (qılıncoynatma) iştirak ediblər.

Qeyd edək ki, Pal Şmit 2010-2012-ci illərdə Macarıstanın prezidenti olub.

### Rusiya idmançılarının Tokio-2020-də neytral statusda çıxışlarını nəzərdən keçirmir

Rusiya Olimpiya Komitəsi (ROK) Rusiya idmançılarının 2020-ci ildə Tokio Olimpiya Oyunlarında neytral statusda çıxış etmək imkanını nəzərdən keçirmir. Bu barədə ROK-un prezidenti Stanislav Pozdnyakov noyabrın 28-də Olimpiya məclisində çıxışında bəyan edib.

Pozdnyakov deyib: "Neytral bayraq barədə heç bir söhbət gedə bilməz. Çünki Rusiya Olimpiya Komitəsi heç bir beynəlxalq idman təşkilatı, o cümlədən BOK və WADA tərəfindən araşdırma və ya iddia mövzusu ola bilməz".

Noyabrın 25-də WADA-nın müvafiqlik komitəsi qurumun İcraiyyə Komitəsinə Rusiya Antidopinq Agentliyini (RUSADA) təşkilatın şərəfinə layiq olmayan qurum kimi tanımağı, Rusiya idmanına bir sıra qadağalar tətbiq etməyi, o cümlədən Rusiya idmançılarını dörd il ərzində beynəlxalq yarışlarda çıxış etmək imkanından məhrum etməyi və RF ərazisində beynəlxalq yarışlar keçirilməsini qadağan etməyi tövsiyə edib.

WADA-nın İcraiyyə Komitəsi Rusiya idmanına dair qəti qərarı dekabrın 9-da Parisdə keçiriləcək iclasında qəbul edəcək.

# Azad Rəhimov Türk Şurası Gənclər və İdman nazirlərinin 4-cü iclasında iştirak edib

*(əvvəli 1-ci səhifədə)*

Türk Şurasına üzv Dövlətlərin gənclər sahəsindəki əməkdaşlığı, Gənclər Platformasının 2-ci Baş Assambleyası Forumunun, 3-cü Türk Şurası Gənc Liderlərin Forumunun tarixlərinin müəyyən olunması və digər mühüm məsələlər iclas zamanı gənclər sahəsində aparılan müzakirələr sırasında olub. 2020-ci ildə Qazaxıstanda gerçəkləşdiriləcək 2-ci İdman Oyunları Türk Universiadası, 2020-ci ildə Türkiyədə keçiriləcək 4-cü Dünya Köçəri oyunları, Türk Şurasına üzv dövlətlərin dopinqlə mübarizə məsələsi, Türkiyə Anti-Dopinq Komissiyasının təcrübə mübadiləsi və bu sahəni əhatə edən digər mühüm mövzular idman sahəsinin müzakirə mərkəzində olub.

İclasda çıxış edən nazir Azad Rəhimov bildirib ki, Bişkekdə baş tutan iclasdan əvvəl İstanbul, Bakı və Astanada toplantılar keçirilib. Eyni zamanda, daimi olaraq Türk Şurasında bu istiqamətdə işçi qrupu fəaliyyət göstərir. Nazir Türk Şurası çərçivəsində gənclər və idman sahəsində əməkdaşlığımızın düzgün istiqamətdə getdiyini bildirib.

Çıxışının davamında Azad Rəhimov deyib: "Qeyd edim ki, Azərbaycan 2016-2019-cu illərdə Türk Şurasının 3 gənclər, 2 idman tədbirlərinə və 1 dəfə nazirlərin iclasına ev sahibliyi edib. Eyni zamanda, Türkiyə, Qazaxıstan və Qırğızıstanda keçirilmiş forum, festival, düşərgə və idman yarışlarında Azərbaycan gəncləri və idmançılarının iştirakı təmin edilib". Ölkə başçısı cənab İlham Əliyevin istər gənclər, istərsə də, idman sahələrinə xüsusi diqqət və qayğı göstərdiyini bildirən nazir, bu gün ölkəmizdə 40-a yaxın gənclər evi və mərkəzlərin inşa edilib, gənclərin ixtiyarına verildiyini, artıq Azərbaycanda 45 Olimpiya idman kompleksinin fəaliyyət göstərdiyini də diqqətə çatdırıb. Azad Rəhimov Bakı Olimpiya Stadionu, Su İdmanı Sarayı, Milli Gimnastika Arenası və digər idman qurğularında ən yüksək idman yarışlarının təşkil olunduğunu da qonaqlara bildirib.

Azad Rəhimov çıxışının davamında əlavə edib: "Bildiyiniz kimi, keçən ay Türk Şurası Gənclər Platformasının birinci Baş Assambleyası Bakıda təşkil edilmişdi. Baş Assambleyanın Türk Şurası Zirvə Toplantısı ərəfəsində keçirildiyini nəzərə alsaq yaxşı bir ənənənin qoyulduğunu görərik. Təklif edirəm ki, Baş Assambleyalar məhz Zirvə Toplantıları öncəsi keçirilsin". Nazir Türk Şurası Gənclər Platformasının beynəlxalq gənclər təşkilatları ilə sıx əməkdaşlıq əlaqələrinin qurulmasının faydalı olduğunu, hazırda Platformaya Azərbaycanın sədrlik etdiyini və mövcud əlaqələrimizdən və təcrübədən istifadə edərək Platformanın inkişafına öz töhfələrimizi verəcəyimizi bildirib. Çıxışının sonunda nazir Azad Rəhimov 2020-ci ilin yay aylarında Türk Şurası beşinci Beynəlxalq Gənclər Düşərgəsinin Azərbaycanda keçirilməsini təklif edib.

Səfər çərçivəsində Azərbaycan Respublikası Gənclər və idman naziri Azad Rəhimov və Qırğızıstan Respublikası Hökuməti yanında Gənclər, bədən tərbiyəsi və idman direktoru Kanat Amankulov arasında bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq haqqında Saziş və Gənclər siyasəti sahəsində 2020-2021-ci illəri əhatə edən Tədbirlər planı imzalanıb.



# XXI Respublika Spartakiadasının qalibi olan komanda mükafatlandırıldı

***"Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin xidmət sahəsinə daxil olan müəssisə və təşkilatların Azərbaycan Respublikasının "Dövlət Müstəqilliyi Günü"nə həsr olunmuş XXI Respublika Spartakiadasına yekun vurulub. 10 idman növü (futbol, voleybol, daşqaldırma, kəndirdartma, stolüstü tennis, üzgüçülük, dama, nərd, şahmat, güllə atıcılığı) üzrə keçirilən yarışların yekununda birinci yerə Aviasiya İşçiləri Hİ RK-nın komandası layiq görülüb. Metropoliten İşçiləri Hİ-nin komandası ikinci yerə sahib çıxıb. Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Hİ RK-ın komandası isə üçüncü yeri tutub.***

Noyabrın 29-da Milli Aviasiya Akademiyasının akt zalında spartakiadanın qalibi olan komandaya mükafatlar təqdim edilib.

Tədbirdə Azərbaycan Respublikası Aviasiya İşçiləri Həmkarlar İttifaqının Respublika Komitəsinin sədri, Beynəlxalq Aviasiya Komitəsinin sədri Bəkir Yusifov, "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin sədri Fazil Hadıbəyov və idman ictimaiyyətinin digər nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Bəkir Yusifov respublika spartakiadasının uğurla keçirildiyini qeyd edərək, müxtəlif idman növləri üzrə yarışlarda parlaq qələbələr qazanıldığını diqqətə çatdırıb. Aviasiya İşçiləri Hİ RK-nın komandasının birinci olduğunu qeyd edən Bəkir Yusifov bu uğuru yüksək nəticə kimi dəyərləndirib və iştirakçıları təbrik edib. Çıxışında idman sahəsində qazanılan uğurlardan danışan Komitə sədri Azərbaycanın dünyada idman ölkəsi kimi böyük nüfuza malik olduğunu diqqətə çatdırıb.

Tədbirdə çıxış edən Fazil Hadıbəyov qonaqları salamlayaraq XXI Spartakiada haqqında məlumat verib. Bildirilib ki, Həmkarlar İttifaqının 7 komitəsindən 6-sı spartakiadada iştirak edib. "Spartakiada 10 idman növü üzrə keçirildi. Bu idman növlərində 4-ü Milli Aviasiya Akademiyasının yarış zalında təşkil olundu. Digər idman növləri isə müxtəlif idman bazalarında keçirildi. Spartakiadanın keçirilməsində göstərilən dəstəyə görə Milli Aviasiya Akademiyasının rəhbərliyinə minnətdarlığımı bildirirəm. Aviasiya İşçiləri Hİ RK-nın komandası bu yarışda daha fəal iştirak edərək birinci yerə layiq görüldü. Metropoliten İşçiləri Hİ-nin komandası ikinci, Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Hİ RK-ın komandası isə üçüncü oldu. Bütün qaliblər bu qələbə münasibəti ilə təbrik edir, onlara uğurlar arzulayıram", - deyə Fazil Hadıbəyov bildirib.

Sonra "Zenit" Bədən Tərbiyəsi İdman Cəmiyyəti İctimai Birliyinin sədri Fazil Hadıbəyov Aviasiya İşçiləri Həmkarlar İttifaqları Respublika Komitəsinin sədri Bəkir Yusifovu XXI Respublika Spartakiadasının qalibi olması münasibəti ilə diplom və qiymətli hədiyyə ilə təltif edib.

Məlumat üçün bildirək ki, spartakiadanın keçirilməsində əsas məqsəd zəhmətkeşlərin sağlamlığının möhkəmləndirilməsi, onların bədən tərbiyəsi və idman məşğələlərinə cəlb edilməsini təmin etmək, müəssisə və təşkilatların fəhlə və qulluqçuların asudə vaxtını səmərəli keçirməkdən ibarət olub.

## *Güləşçimiz ALROSA Kubokunda qələbə qazanıb*

Rusiyanın paytaxtı Moskvada sərbəst və yunan-Roma güləşi üzrə ALROSA Kuboku keçirilib. Ənənəvi yarışda sərbəst güləş yığmamızın üzvləri ölkəmizi təmsil



edib. İki gün davam edən turnirdə baş məşqçi əvəzi Zəlimxan Hüseynovun rəhbərliyi altında Georgi Edişeraşvili (57 kq), Hacı Əliyev (65 kq), Hacımurad Hacıyev (74 kq), Cəbrayıl Həsənov (86 kq) və Şərif Şərifov (97 kq) mübarizə aparıb. Noyabrın 29-da Olimpiya çəkiləri üzrə fərdi mübarizəyə start verilib. Ən yüngül çəkidə cəmi 2 iştirakçı olduğundan bu kateqoriyada fərdi yarış keçirilməyib. Həmin gün Şərif Şərifov (97 kq) iranlı Məhəmməd Məhəmmədi üzərində əzmkar qələbə qazanıb - 5:4. Hacı Əliyev (65 kq) II Avropa Oyunlarının finalında məğlub etdiyi gürcü Vladimir Xinceqavilini növbəti dəfə üstələyib - 7:3. Beləliklə, hər iki güləşçimiz ertəsi gün Rusiya və dünya yığması qarşılaşmasında iştirak hüququ əldə edib. Hacımurad Hacıyev (74 kq) ilk görüşdə gürcü Avtandil Kençadzeyə (2:12), Cəbrayıl Həsənov (86 kq) isə rusiyalı Məhəmməd Ramazanova (1:4) uduzub. Ancaq yığma üzvləri bürünc medal əldə edib. Belə ki, axşam seansında H.Hacıyev kubalı Kabalyero Qarzondan (7:2), C.Həsənov isə moldovalı Petr Yanulovdan (3:0) güclü olub. Həlledici qarşılaşmada Hacı son Avropa çempionatında məğlub etdiyi qalib gəlib. H.Əliyev son saniyələrdə icra etdiyi uğurlu fəndlə 5:4 hesablı qələbəyə sevinib. Edişeraşvili yerli Ramiz Həmzətova (4:7), Şərif Şərifov isə Rusiyanın digər təmsilçisi Əlixan Cəbrayılova (2:5) məğlub olub.

## EEVZA çempionatında qalib müəyyənləşib

Tbilisidə 16 yaşadək qız voleybolçular arasında Şərqi Avropa Zonal Assosiasiyasının (EEVZA) çempionatı keçirilib.

Yarışda Gürcüstan, Latviya, Rusiya, Ukrayna və Azərbaycan millilləri A, Belarus, Estoniya, Latviya, Polşa komandaları isə B qrupunda mübarizə aparıblar.

Avro-2020-yə seçim xarakteri daşıyan çempionat Rusiya voleybolçularının qələbəsi ilə yekunlaşıb və komanda Avropa çempionatına vəsiqə qazanıb. Qrup mərhələsində maksimum nəticə göstərən şimal qonşularımız həlledici görüşdə Polşadan güclü olublar - 3:0. Üçüncü yer uğrunda matçda isə Ukrayna və Belarus millilləri üz-üzə gəliblər. Daha güclü olan Belarus millisi 3:2 hesabı ilə qələbə qazanaraq bürünc medala yiyələnib.

Qeyd edək ki, A qrupunda oynayan komandamız Rusiya, Ukrayna, Latviya, Gürcüstanla qüvvəsini sınayıb və bütün görüşləri məğlub başa vurub.

Azərbaycan karateçiləri Madriddə keçirilən "Karate 1" Premyer Liqa turnirlərində mövsümün son mərhələsini 2 medalla başa vurublar.

Dünya Karate Federasiyasının (WKF) mötəbər liqasında İrina Zaretska (68 kiloqram) qızıl, Pənah Abdullayev (84 kiloqram) isə bürünc medal qazanıb. Nura-

## *Millimiz Madriddə iki medal qazandı*

nə Əliyevanın 3-cü yer uğrunda həlledici görüşü uğursuz alınıb.

Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov idmançıların mükafatlandırılması mərasimində iştirak edib. İspaniyada keçirilən yarışda 89 ölkədən 737 karateçi mübarizə aparıb. İdmançılar hər qələbəyə və medalların əyarına əsasən, dünya reytinqi ilə yanaşı,




Olimpiya reytinq xalları qazanıblar. Azərbaycan hakimləri Cahangir Babayev və Vüqar Kərimov da mötəbər yarışın final görüşlərində hakimlik edən referilər arasında yer alıblar.

"Karate 1" Premyer Liqasının Madrid mərhələsində, həmçinin ilin yekununa əsasən fərqlənən idmançılar "Grand Winners" mükafatlarına layiq görülüblər. 2019-cu il mövsümünün nəticələrinə əsasən "Grand Winners" mükafatına namizədlər arasında məşhur Azərbaycan karateçiləri Rafael Ağayev (75 kiloqram) və İrina Zaretska (68 kiloqram) da var. Mükafatın təqdimatı isə 2020-ci il yanvarın 24-26-da Parisdə keçiriləcək növbəti mövsümün ilk Premyer Liqa turnirində olacaq.

# "Bakı Şəhər Halqası" multimedia müsabiqəsinə start verib

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkəti (BŞH) Formula 1 dünya çempionatının 70 illiyi və Azərbaycan Qran-Prisinin 5 illiyi münasibətilə yerli media nümayəndələri arasında multimedia müsabiqəsinə start verib. Müsabiqənin keçirilməsində məqsəd indiyədək Bakıda baş tutmuş Formula 1 yarışlarının ölkəyə qazandırdığı avtoidman ənənəsi və mədəniyyətini hərtərəfli şəkildə işıqlandırmaqdır. Telereportaj, məqalə və foto olmaqla üç kateqoriya üzrə keçirilən multimedia müsabiqəsində yalnız yerli media nümayəndələri iştirak edə bilərlər. Müsabiqəyə təqdim olunacaq multimedia işləri avtoidman, Formula 1 dünya çempionatı və ya Azərbaycan Qran-Prisi ilə bu və ya digər şəkildə əlaqəli olmalıdır. BŞH-nin marketinq və kommunikasiya şöbəsinin rəhbəri Nigar Arpadarai yerli media nümayəndələri üçün ilk dəfə bu səviyyədə irimiqyaslı bir müsabiqənin keçirildiyini bildirib: "Biz artıq ölkəmizdə 5-ci Formula 1 yarışının təşkilinə hazırlaşırıq. Bu, bizim üçün çox böyük uğurdur və bu baxımdan da çox qürurverici haldır. Qarşıdan gələn yarış mövsümünə hazırlıq çərçivəsində beşilliyimizlə bağlı keçirəcəyimiz tədbirlərin həm sayını, həm də əhatə dairəsini genişləndirmişik. İlk dəfədir ki, bizimlə sıx çalışan bütün media nümayəndələrini əhatə edəcək bir layihəyə start veririk. İnanıram ki, bu müsabiqədə hamı maraqla iştirak edərək ən gözəl işlərini təqdim etməyə çalışacaq".

Müsabiqəyə müraciətlərin qəbulu dekabrın 1-dən yanvarın 15-dək aparılacaq. Müsabiqəyə qatılmaq istəyənlər hazırladığı multimedia məhsulunun çap olunmuş və ya yayımlanmış nüsxəsini elektron formada və mümkünsə müvafiq veb-səhifəyə keçidlə birlikdə media@bakugp.az email ünvanına "Multimedia müsabiqəsi" başlığı ilə göndərməlidirlər.

Qəbul olunan multimedia işləri hər bir kateqoriya üzrə əvvəlcədən müəyyənləşdirilmiş 3 münsifdən ibarət heyət tərəfindən uyğunluq, kreativlik və aktuallıqla yanaşı, digər zəruri texniki göstəricilər üzrə qiymətləndiriləcək. Nəticələr gələn il yanvarın 31-də elan olunacaq və müsabiqənin qalibləri növbəti Formula 1 yarış mövsümü öncəsi baş tutacaq sınaq yürüşlərini izləmək üçün əməliyyat şirkəti hesabına Barselonaya göndəriləcəklər. İkinci və üçüncü yerlərin sahiblərinə isə dəyərli hədiyyələr təqdim olunacaq.

# Buxarestdə Avro-2020-nin final mərhələsinin püşkatma mərasimi keçirilib

## Türkiyə, Uels və İsveçrə yenidən Bakıya gələcək




*(əvvəli 1-ci səhifədə)*

Avropa çempionatının 60 illik yubileyi münasibətilə qitə birinciliyinin oyunları Avropanın 12 şəhərində - Sankt-Peterburq, London, Münxen, Bakı, Roma, Buxarest, Dublin, Kopenhagen, Bilbao, Qlazqo, Budapeşt və Amsterdamda keçiriləcək.

Azərbaycan paytaxtında - Bakı Olimpiya Stadionunda A qrupunun 3, dörddəbir final mərhələsinin isə bir qarşılaşması keçiriləcək. Türkiyə yığma komandası Bakıda iki oyun keçirəcək. Təqvimə əsasən, iyunun 13-də Uels və İsveçrə yığmaları Bakı Olimpiya Stadionunda qarşılaşacaqlar. Türkiyə millisi iyunun 17-də Uels, iyunun 21-də isə İsveçrə ilə görüşəcək.



Qeyd edək ki, Avro-2020-yə son 4 vəsiqə uğrunda UEFA Millətlər Liqasında daha yaxşı çıxış etmiş 16 komanda mübarizə aparacaq. Noyabrın 22-də püşkatmadan sonra liqalar üzrə yarımfinallarda qarşılaşacaq rəqiblər aşağıdakı kimi müəyyənləşib:

**A liqası:** İslandiya - Rumıniya və Bolqarıstan - Macarıstan.

**B liqası:** Bosniya və Herseqovina - Şimali İrlandiya və Slovakiya - İrlandiya.

**C liqası:** Şotlandiya - İsrail və Norveç - Serbiya.

**D liqası:** Gürcüstan - Belarus və Şimali Makedoniya - Kosovo.

Bu görüşlər gələn ilin martında keçiriləcək. Avro-2020-nin final mərhələsində qruplarda ilk iki yeri tutacaq komandalar, habelə üçüncü yeri tutan yığmalar arasında ən yaxşı nəticə göstərən yığmalar səkkizdəbir finala yüksələcəklər. Avropa çempionatının final mərhələsi iyunun 12-dən iyulun 12-dək keçiriləcək. Çempionatın final matçı Londonun "Uembli"stadionunda baş tutacaq.

### Avro-2020-nin qrup mərhələsinin təqvimi:

**AÇ-2020**

**Qrup mərhələsi**

**12 iyun**

**A qrupu.** Türkiyə - İtaliya (Roma, "Olimpiko" stadionu)

**13 iyun**

**A qrupu.** Uels - İsveçrə (Bakı Olimpiya Stadionu)

**B qrupu.** Danimarka - Finlandiya Kopenhagen ("Parken" stadionu)

**B qrupu.** Belçika - Rusiya (Sankt-Peterburq. "Krestovski" stadionu)

**14 iyun**

**C qrupu.** Hollandiya-Ukrayna (Amsterdam. "Yohan Kroyf Arena")

**C qrupu.** Avstriya - D Liqasının qalibi. (Buxarest, "Nasyonal Arena")

**D qrupu.** İngiltərə - Xorvatiya (London, "Uembli" stadionu)

**15 iyun**

**D qrupu.** C Liqasının qalibi - Çexiya (Qlazqo, "Hempden Park")

**E qrupu.** İspaniya - İsveç. Bilbao ("San Mames" stadionu)

**E qrupu.** Polşa - B Liqasının qalibi (Dublin. "Aviva" stadionu)

**16 iyun**

**F qrupu.** A Liqasının qalibi - Portuqaliya (Budapeşt. "Puşkaş Arena")

**F qrupu.** Fransa - Almaniya. (Münhen "Alyans Arena")

**17 iyun**

**A qrupu.** Türkiyə - Uels (Bakı Olimpiya Stadionu)

**A qrupu.** İtaliya - İsveçrə (Roma, "Olimpiko" stadionu)

**B qrupu.** Finlandiya - Rusiya (Sankt-Peterburq. "Krestovski" stadionu)

**18 iyun**

**B qrupu.** Danimarka - Belçika (Kopenhagen, "Parken" stadionu)

**C qrupu.** Hollandiya - Avstriya (Amsterdam, "Yohan Kroyf Arena")

**C qrupu.** Ukrayna - D Liqasının qalibi (Buxarest. "Nasyonal Arena")

**19 iyun**

**D qrupu.** Xorvatiya - Çexiya (Qlazqo, "Hempden Park")

**D qrupu.** İngiltərə - C Liqasının qalibi (London, "Uembli" stadionu)

**E qrupu.** İsveç - B Liqasının qalibi (Dublin. "Aviva" stadionu)

**20 iyun**

**E qrupu.** İspaniya - Polşa. (Bilbao. "San Mames" stadionu)

**F qrupu.** A Liqasının qalibi - Fransa. (Budapeşt. "Puşkaş Arena")

**F qrupu.** Almaniya - Portuqaliya. (Münhen. "Alyans Arena")

**21 iyun**

**A qrupu.** İsveçrə - Türkiyə (Bakı Olimpiya Stadionu)

**A qrupu.** İtaliya - Uels (Roma, "Olimpiko" stadionu)

**22 iyun**

**B qrupu.** Danimarka - Rusiya (Kopenhagen. "Parken" stadionu)

**B qrupu.** Finlandiya - Belçika (Sankt-Peterburq. "Krestovski" stadionu)

**C qrupu.** Hollandiya - D Liqasının qalibi (Amsterdam, "Yohan Kroyf Arena")

**C qrupu.** Avstriya - Ukrayna (Buxarest. "Nasyonal Arena")

**23 iyun**

**D qrupu.** Xorvatiya - C Liqasının qalibi (Qlazqo. "Hempden Park")

**D qrupu.** İngiltərə - Çexiya (London. "Uembli" stadionu)

**24 iyun**

**E qrupu.** B Liqasının qalibi - İspaniya (Bilbao. "San Mames" stadionu)

**E qrupu.** İsveç - Polşa (Dublin. "Aviva" stadionu)

**F qrupu.** Portuqaliya - Fransa (Budapeşt. "Puşkaş Arena")

**F qrupu.** Almaniya - A Liqasının qalibi (Münhen. "Alyans Arena")

### Elxan Məmmədov: "Böyük futbol bayramının birbaşa iştirakçısı olacağıq"

"Buxarest şəhərində təşkil olunmuş püşkatma mərasimində AFFA-nın rəhbərliyi ilə birgə iştirak etdik. Sevindirici haldır ki, Bakı Avropa çempionatına ev sahibliyi edəcək şəhərlərdən biridir. Qrup mərhələsinin 3 oyunu ilə yanaşı, Bakı 1/4 final mərhələsinin oyunlarının keçiriləcəyi 4 şəhərin də sırasındadır. Böyük futbol bayramının birbaşa iştirakçısı olacağıq. Xüsusilə, Türkiyə millisinin qrup mərhələsində Bakıda iki oyun keçirəcəyi bizləri sevindirir".

Bu sözləri Avropa çempionatının final mərhələsinin püşkatma mərasimindən danışarkən AFFA-nın baş katibi Elxan Məmmədov deyib. O bildirib ki, Türkiyə futbolunun Azərbaycanda azarkeşləri çoxdur. Üstəlik, Türkiyədən öz milli komandalarının oyununu stadionda izləmək istəyənlər üçün ən rahat, ən yaxın və ən doğma şəhər Bakıdır.

"Bu baxımdan bizim üçün çox şanslı püşkatma oldu ki, Türkiyə millisi Bakıda oynayacaq. Eyni zamanda, Türkiyə komandası üçün də uğurlu alındı ki, rəqibləri ilə Azərbaycan paytaxtında qarşılaşacaq. Uelsli və isveçrəli azarkeşləri də Bakıda gözləyirik", - deyə AFFA-nın baş katibi vurğulayıb.

### Nihat Özdəmir: "Bakı öz evimiz sayılır"

Türkiyə Futbol Federasiyasının prezidenti Nihat Özdəmir Avro-2020-in püşkatmasını şərh edib.

Qurum rəhbərinin "Euronews"ə verdiyi müsahibədə bildirilir: "Bizim məqsədimiz final mərhələsinə düşmək idi. Yaxşı qrupa düşdük. Bakı öz evimiz sayılır. Hər zaman deyirik, bir millət, iki dövlətik. Yaxşı komandamız var. Azərbaycanda oynamaq bizə qürur verəcək. İtaliyanı tariximizdə məğlub edə bilməmişik. Onlar seçmə mərhələdə qrupda 10 oyunun hamısında qalib gəliblər. İtaliyaya ilk məğlubiyyəti yaşatmaq istəyirik. Futbolçularımıza və baş məşqçimizə çox güvənirik. Azərbaycanda öz evimizdəki kimi oynayacağıq. İnşallah, yaxşı nəticə qazanarıq".

### Şenol Günəş: "Xeyirli olsun. Biz Bakını istəyirdik"

Türkiyə millisinin baş məşqçisi Şenol Günəş Avro-2020-nin final mərhələsindəki ev oyunlarından ikisinin Bakıda keçiriləcəyinə münasibət bildirib. O, Türkiyə mətbuatına açıqlamasında əvvəldən Bakıda oynamaq istədiklərini açıq-aşkar bəyan edib: "Xeyirli olsun. Biz Bakını istəyirdik. Azərbaycanda öz meydanımızda oynayacağıq. Buraya gəlmək önəmli idi. Qürurvericidir. İnşallah, qrupdan çıxaraq daha gözəl günlər görəcəyik"

### Vladimir Petkoviç: "Evdə oynamaq üstünlükdür"

İsveçrə millisinin baş məşqçisi Vladimir Petkoviç AÇ-2020-nin final mərhələsinin püşkünü dəyərləndirib. "Püşkdən əvvəl də demişdim ki, Romada İtaliya ilə qarşılaşmaq istəyirik. İnanıram ki, bu, qarşılıqlıdır. Yeganə problem Bakı ilə olan məsafədir. Nəyi necə edəcəyimizi planlaşdırmalıyıq.

İtaliya qrupda favoritdir. Digər üç yığma 2-ci yer uğrunda mübarizə aparacaq. İtaliyalılar Avropa çempionu ola bilərmi? Bəli, namizədlər arasında onlar da var. Digər tərəfdən, evdə oynamaq üstünlükdür. Romada cəmi 1 oyun keçirəcəyik", - deyə Petkoviç bildirib.

### Rayan Giqqz: "Azərbaycan bizi ikinci ölkəmiz kimi qəbul edə bilər"

Uels yığmasının baş məşqçisi Rayan Giqqz yerli mətbuata püşkatma barəsində və Bakıdakı oyunlar haqqında məlumat verib. O, deyib: "Bu yaxınlarda Bakıya səfər etmişdik. Yaxşı səfər oldu. Orada qələbə qazandıq və yaxşı təcrübə topladıq. Yenidən Bakıya gedəcəyik. Yerli şərait və isti havalardan asılı olmayaraq, Bakıda qalacağıq. Bu səbəbdən, daha yaxşı seçim ola bilməzdi. Biz oyunlar keçirəcək və idman obyektləri ilə tanış olacağıq. Orada olduğumuz vaxt həmin obyektlərin gözəlliyinin şahidi olduq. Bu iki matçla Azərbaycan bizi ikinci ölkəmiz kimi qəbul edə bilər".

# "Judo Club 2012"də ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş cüdo turniri keçirilib

***Noyabrın 30-u dekabrın 1-də "Judo Club 2012"nin yarış zalında ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş yeniyetmələr arasında cüdo üzrə ənənəvi klub birinciliyi keçirilib. Yarışın açılış mərasimində əvvəlcə ulu öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***



Mərasimində çıxış edən klubun direktoru Hafis Hacıyev iştirakçılara "Cüdo Klub 2012" İctimai Birliyinin sədri Azər Əsgərovun salamlarını çatdırıb və onlara uğurlar arzulayıb. Turnirin müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsinə həsr olunduğunu deyən H.Hacıyev dahi şəxsiyyətin dövlətimiz və xalqımız qarşısında misilsiz xidmətlərindən bəhs edib. O, ulu öndərin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə kütləvi bədən tərbiyəsi və idmanın inkişafına xüsusi diqqət və qayğı göstərdiyini bildirib. Çıxışında ölkəmizdə idmanın yüksələn xətlə inkişaf etdiyini diqqətə çatdıran klubun direktoru bu sahənin dövlət siyasətinin prioritetlərindən birinə çevrildiyini və Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində Azərbaycanın beynəlxalq aləmdə idman ölkəsi kimi tanındığını vurğulayıb. Azərbaycan cüdoçularının beynəlxalq miqyaslı yarışlarda qazandıqları parlaq qələbələrindən danışan Hafis Hacıyev həmçinin, başa çatmaqda olan ilin "Judo Club 2012"nin yetirmələri üçün də uğurlu olduğunu vurğulayıb. O, klubun idmançılarının həm ölkədaxili yarışlarda, həm də beynəlxalq arenalarda ümidləri doğrultduğunu qeyd edib.

Açılış mərasimində çıxış edən "Judo Club 2012"nin cüdo bölməsi üzrə məşqçisi, veteranlar arasında cüdo üzrə dünya və Avropa çempionatlarının qalib və mükafatçısı Zaur Paşayev turnir haqqında iştirakçılara məlumat verib. Birinciliyin yeniyetmə idmançıların yarış təcrübələrinin artmasında böyük rol oynayacağını qeyd edən Z.Paşayev bütün iştirakçılara uğurlar arzulayıb.

Sonra çıxış edən veteranlar arasında dünya və Avropa çempionatının qalib və mükafatçısı Müşfiq Cəfərov idmançıları ədalətli mübarizəyə çağırıb. Veteran cüdoçu həmçinin klubun uğurları barəsində də danışıb. O, əldə olunmuş nailiyyətləri "Cüdo Klub 2012" İctimai Birliyinin sədri, Azərbaycan Cüdo Federasiyası İcraiyyə Komitəsinin üzvü, cüdo üzrə veteranlar arasında dünya və Avropa çempionatlarının dəfələrlə qalib və mükafatçısı Azər Əsgərovun məşqçilərə və idmançılara göstərdiyi diqqət və qayğının, onlar üçün yaradılmış şəraitin nəticəsi kimi dəyərləndirib.

Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsindən sonra yarışlara start verilib.



İki gün davam edən birinciliklə 200-dən çox yeniyetmə idmançı qüvvəsini sınayıb. Yarışın keçirilməsində əsas məqsəd ulu öndər Heydər Əliyevin xatirəsini yad etmək, klubun kiçik yaş qrupları üzrə yığma komandasının heyətini müəyyənləşdirmək və idmançıların qarşıdakı yarışlara hazırlıq səviyyəsini yüksəltməkdən ibarət olub. Birinciliyin ilk günündə 2008, 2009 və 2010-cu illər təvəllüdlü idmançılar tatami üzərinə çıxıblar. İkinci yarış günündə isə 2006-2007-ci illər təvəllüdlü cüdoçular həm fərdi, həm də komanda yarışlarında mübarizə aparıblar. Müxtəlif çəki dərəcələri üzrə keçirilən fərdi yarışlarda qaliblərin adlarına aydınlıq gəlib. Komanda yarışlarının final mərhələsində "Qardaşlar" komandası birinci yerə layiq görülüb. Həlledici görüşdə məğlub olan "Yenilməzlər" komandası isə gümüş medallara sahib çıxıb. Yarışda ilk üç yeri tutan idmançılar "Judo Club 2012"nin diplom və medalları ilə mükafatlandırılıblar. Qalib komanda diplom və medallarla yanaşı, keçici kuboka da sahib çıxıb. Tədbir iştirakçılarına həmçinin ulu öndərin xatirə hədiyyəsi olaraq ulu öndər Heydər Əliyevin döş nişanı təqdim olunub.

Qaliblərə mükafatları cüdo və sambo üzrə SSRİ İdman ustası Asif Yusifov, SSRİ Spartakiadasının bürünc mükafatçısı İlham Cəfərov, veteranlar arasında dünya və Avropa çempionatlarının qalib və mükafatçıları Rəsul Səlimov, Müşfiq Cəfərov, Mübariz Cəfərov, Zaur Paşayev, İntiqam Ələkbərov, Məmməd Məmmədov və başqaları təqdim ediblər.

Xatırladaq ki, ölkə idmanında öz uğurları ilə diqqət çəkən "Judo Club 2012"də əvvəlki illərdə də ulu öndərin anım gününə həsr olunmuş ənənəvi yarışlar keçirilib.

## Türkiyə sınağı uğurla başa çatdı

Azərbaycan idmançıları Türkiyənin paytaxtı Ankarada uşu üzrə beynəlxalq "İpək Yolu" açıq Balkan turnirində 6 medal qazanıblar. Turnirdə ölkəmizi təmsil edən Amal Məmmədov (40 kq), Bahadur Əhmədov (56 kq) və Hüseyn Şimiyev (+85 kq) bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Elmir Əliyev (45 kq) və Rüfət Ramazanlı (60 kq) isə final mərhələsində uduzaraq gümüş medalla kifayətləniblər. Mehdi Salmanov (70 kq) isə yarımfinal mərhələsində məğlub olsa da bürünc medalı əldən verməyib.

Azərbaycan komandası yarışda məşqçi Rəşad İsayevin rəhbərliyi altında mübarizə aparıb.

Qeyd edək ki, beynəlxalq turnirdə ölkəmizdən başqa, İran, İraq, Əfqanıstan, Qırğızıstan, Belçika, Yunanıstan, Rusiya, Gürcüstan və Qazaxıstandan 1800-ə yaxın idmançı qüvvəsini sınayıb.

## HYATT Regency Baku oteli ilə anlaşma memorandumu imzalanıb

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsi (MPK) Korporativ Sosial Məsuliyyət Çərçivəsində Hyatt Regency şirkəti ilə əməkdaşlığa başlayır. Hyatt Regency Baku otelində əməkdaşlıq ilə bağlı anlaşma memorandumu imzalanıb. Sənədi MPK-nın prezidenti İlqar Rəhimov və otelin direktor müavini Aleksey Popov imzalayıblar. Memorandum HYATT Regency və MPK arasında qarşılıqlı əməkdaşlığı gücləndirmək və sosial layihələr çərçivəsində Komitəyə dəstək olmağı nəzərdə tutur. İmza mərasimində çıxış edən MPK prezidenti İlqar Rəhimov noyabr ayının 13-də Bakıda Heydər Əliyev Fondu və Milli Paralimpiya Komitəsinin birgə təşkilatçılığı ilə "Yenilməzlər" adlı beynəlxalq Qala təqdimatın keçirildiyini xatırladıb. "Bu tədbirin əsas məqsədi Korporativ Sosial Məsuliyyət ilə bağlı ölkədə fəaliyyət göstərən şirkətlərə çağırış etmək idi. Tədbirdə edilən çağırışlara ilk səs verən HYATT Regency Baku şirkəti oldu. Memorandum ölkəmizdə paralimpiya hərəkatının daha da inkişafına səbəb olacaqdır" - deyə o əlavə edib. HYATT Regency Baku otelinin direktor müavini öz növbəsində paralimpiya komitəsi ilə əməkdaşlığa böyük önəm verdiklərini deyib. Bu əməkdaşlığın Azərbaycanda əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiya olunmasında mühüm töhfə olacağını qeyd edib.



## Basketbol yarışının qalibləri müəyyənləşib

Orta ixtisas təhsil müəssisələri arasında XIV Respublika spartakiadası çərçivəsində qızlar arasında basketbol yarışları keçirilib. Yarışda 6 komanda birincilik uğrunda mübarizə aparıb. Yekun nəticələrə görə birinci yeri Bakı 2 nömrəli Baza Tibb Kollecinin komandası tutub. Bakı Dövlət Sosial-İqtisad Kollecinin basketbolçuları yarışı ikinci, Azərbaycan Dövlət Pedaqoji Kollecin komandası isə üçüncü yerdə başa vurublar.

## Snayperimiz Tbilisidə mükafatçılar sırasında yer alıb

Azərbaycanın gənclərdən ibarət güllə atıcılığı üzrə komandası açıq Tbilisi çempionatında 1 medal qazanıb.




Komandamızın üzvü Vladislav Kalmikov 10 metr məsafəyə atəşaçma yarışında 556 xalla gümüş medala layiq görülüb.

Qeyd edək ki, bundan əvvəl böyüklərdən ibarət komandamızın üzvləri Nigar Nəsirova qızıl, Ruslan Lunyov gümüş, paralimpiyaçı Kamran Zeynallı bürünc medal qazanıblar.

## Ölkə birinciliyinə yekun vurulub

Azərbaycan Texniki Universitetinin İdman Sarayında keçirilən yeniyetmələr arasında ölkə birinciliyinə yekun vurulub.

Azərbaycan Qılıncoynatma Federasiyasının, Gənclər və İdman Nazirliyinin birgə təşkil etdiyi turnirdə oğlanlar və qızlar arasında üç növ üzrə yarışların qalibləri müəyyənləşib. Oğlanlar arasında sablyada Saleh Məmmədov, şpaqada Elçin Daşdəmirov və rapirada Ziya Yolçuzadə fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Qızların mübarizəsində isə sablyada Zərifə Hüseynova, şpaqada Nazilə Rəhimova və rapirada Röya Ağayeva birinci olublar.

Mükafatçılar diplom və medallarla təltif ediliblər.

## Suraxanıda yeni cüdo və boks zallarının açılışı olub

Suraxanı rayonunda yerləşən Tofiq İsmayılov adına Olimpiya Təlim-İdman Kompleksində yeni cüdo və boks zallarının açılışı olub. Tədbirdə çıxış edən "Neftçi İdman Klubu" İctimai Birliyi idarəetmə aparatının rəhbəri Sadıq Sadıqov dövlətimizin idmana göstərdiyi diqqət və qayğıdan danışıb. O, bu sahədə həyata keçirilən düzgün və məqsədyönlü dövlət siyasəti sayəsində Azərbaycan idmanındakı ümumi inkişafdan, ölkəmizin Avropanın və dünyanın idman mərkəzlərindən birinə çevrilməsindən, eləcə də respublikamızın son dövrlər beynəlxalq aləmdə qazandığı etimad sayəsində tez-tez mötəbər idman tədbirlərinə ev sahibliyi etməsindən geniş söhbət açıb.

İdarəetmə aparatının rəhbəri çıxışının sonunda ölkə idmanının qazandığı uğurlarda cüdoçularımızın və boksçularımızın böyük rol oynadığını xüsusi vurğulayıb və yeni zalın açılışı münasibətilə yeniyetmə idmançıları təbrik edərək onlara uğurlar arzulayıb.

Sonra Əməkdar məşqçilər Ağayar Axundzadə, Validə Nuriyeva və boks üzrə klubun baş məşqçisi Vüqar Ələkbərov çıxış ediblər. Suraxanıda daim yaxşı, adlı-sanlı idmançıların yetişdiyini diqqətə çatdıran çıxışçılar bu



ənənənin bundan sonra da yüksələn xətt üzrə davam edəcəyinə inandıqlarını söyləyiblər və yeni zalların açılışına, eləcə də yaradılan yüksək şəraitə görə "Neftçi İdman Klubu"nun rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# Məktəblilər komanda yarışlarında qüvvələrini sınayıblar

Salyanda 2 saylı tam orta məktəbin idman zalında rayonun ümumtəhsil məktəbləri arasında basketbol üzrə rayon birinciliyi keçirilib. Tədbirdə çıxış edən Salyan Rayon Gənclər və İdman İdarəsinin rəis müavini Aqşin Qasımov yarışın qaydaları haqqında komandalara ətraflı məlumat verərək bildirib ki, yarışın keçirilməsində əsas məqsəd rayonda basketbol idman növünü inkişaf etdirmək və gənclərə vətənpərvərlik ruhunu aşılamaqdır.

Bildirib ki, bu gün Azərbaycan dünyanın idman ictimaiyyəti tərəfindən ciddi tərəfdaş, idmançılarımız isə əsas rəqib kimi qəbul olunurlar. Ölkəmizdə idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl və sistemli şəkildə həyata keçirilən tədbirlər, uğurla davam etdirilən idman



siyasəti digər idman növləri ilə yanaşı, basketbolun da inkişafı üçün böyük imkanlar yaradır.

Püşkatmadan sonra komandalar mübarizəyə başlayıblar. Yarış Beynəlxalq Basketbol Federasiyasının yeni qaydaları əsasında keçirilib.

Olimpiya sistemi üzrə keçirilən ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin iştirak etdiyi yarışların yekununda 2 nömrəli tam orta məktəbin komandası birinci olub. 8 nömrəli tam orta məktəbin komandası yarışı ikinci, Arbatan kənd tam orta məktəbin şagirdləri isə üçüncü yeri tutublar.

Mükafatçılar Salyan Rayon Gənclər və İdman İdarəsi tərəfindən diplomlarla təltif ediliblər.

* * *

Ağcabədi Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Məmməd Əsədov adına şəhər 5 saylı tam orta məktəbin meydançasında mini futbol üzrə məktəblər arasında rayon turniri keçirilib.



Turnirdə rayon məktəblərindən 12 komanda iştirak edib.

Gərgin və maraqlı idman mübarizəsi şəraitində keçən turnirin yekununda Səməd Vurğun adına şəhər 4 saylı tam orta məktəbin komandası birinci yeri tutub. Bir nömrəli tam orta məktəbin komandası yarışı ikinci, 6 saylı tam orta məktəbin şagirdləri isə üçüncü pillədə başa vurublar.

Mükafatçılara Ağcabədi Rayon Gənclər və İdman İdarəsi tərəfindən diplom və kubok təqdim olunub.

*Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi*

# Multikulturalizm Azərbaycanda həm həyat tərzidir, həm də dövlət siyasətidir

***Azərbaycan dinlərarası ənənələri olan bir ölkədir. Vətənimiz tarixin bütün mərhələlərində bu istiqamətdə nümunəvi məkanlardan sayılır. Qədim Azərbaycandan müasir Azərbaycana qədər, yəni əsrlərboyu bütün dinlər və etnik qrupların nümayəndələri burada bir ailə kimi yaşayıblar. Bu ailədə daim sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma kök salıb. Çoxmillətli bir ölkə statusu daşıyan Azərbaycanda dini və etnik müxtəliflik qiymətli dəyərlərə söykənir. Nəticədə dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər sayəsində Azərbaycan uğurlu inkişafa, sabitliyə nail olub.***

Müasir Azərbaycanda tolerantlıq hər ötən gün daha da möhkəmlənən, təkcə cəmiyyətdə deyil, hər bir vətəndaşın şüurunda, mövqeyində, münasibətində və həyat tərzində öz əksini tapan dəyərə çevrilmişdir. Bunun əsas səbəblərindən biri milliyyətindən, dinindən, dilindən, irqindən asılı olmayaraq bütün vətəndaşların hüquq və azadlıqlarının bərabərliyini təmin edən milli siyasətin əsas müddəalarının Azərbaycan Konstitusiyasında, "Dini etiqad azadlığı haqqında" qanunda təsbit olunmasıdır. Respublikamızda tolerantlıq, dini dözümlülük kimi ali dəyərləri möhkəmləndirmək məqsədilə insan hüquq və azadlıqları, o cümlədən vicdan və dini etiqad azadlığı ilə bağlı qanunvericilik bazası beynəlxalq hüquq normalarına uyğunlaşdırılmışdır.

Eyni zamanda, müxtəlif etnik qrupların öz dillərini, mədəni dəyərlərini qoruyub saxlamaları, dini inanclarını rahat şəkildə yerinə yetirə bilmələri üçün dövlət tərəfindən lazımi şərait yaradılıb. Hər hansı bir xalqın tolerant düşüncəyə sahib olması onun keçmişi ilə nə qədər bağlıdırsa, qorunub saxlanılması ona rəhbərlik edən şəxslərin iradəsindən bir o qədər asılıdır. Bu baxımdan dini abidələrimiz ölkəmizin qədim tarixindən xəbər verir.

Heydər Əliyev Fondu öz beynəlxalq fəaliyyəti, həyata keçirdiyi çoxsaylı layihələri ilə Azərbaycanın multikulturalizminin üstünlüklərini dünyada əyani şəkildə nümayiş etdirir. Fond "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində bugünədək Azərbaycanda və digər ölkələrdə onlarla tədbir və layihələr həyata keçirmişdir. Bu layihələr çərçivəsində dini abidələrdə, ziyarətgahlarda, tikililərdə təmir-bərpa işləri aparılır, müxtəlif konfranslar və sərgilər təşkil edilir.

Biz qürurla qeydə edə bilərik ki, İslam dünyasının ən qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidi Azərbaycanda yerləşir. Məlumat üçün bildirək ki, bu qədim dini abidə 743-cü ildə inşa edilib. Şəkidəki Qafqaz Albaniyası dövrünə məxsus kilsə regionun ən qədim kilsələrindən biridir. Paytaxt Bakıda atəşpərəstlik məbədi sayılan Atəşgah da qədim abidələr sırasındadır. Tarix dəyişdikcə Azərbaycanda rus pravoslav kilsələri, sinaqoqlar, katolik kilsələri inşa edilib. Azərbaycan dövlətinin maliyyə dəstəyi ilə bütün dinlərin məbədləri əsaslı şəkildə təmir edilmiş və ya yenidən bərpa olunmuşdur.

Fondun Fransanın Luvr muzeyində İslam mədəniyyəti bölməsinin təşkilində, Strasburq və bu ölkənin digər regionlarında kilsələrin təmirində, eləcə də Romadakı katakombaların bərpasında, yəhudi uşaqlar üçün təhsil imkanlarının yaradılmasında yaxından iştirakı, Həştərxanda Müqəddəs Knyaz Vladimirin şərəfinə abidənin ucaldılması da məhz ayrı-ayrı xalqların, konfessiyaların qarşılıqlı hörmət və dostluq münasibətlərinin genişləndirilməsinə xidmət edir.

Dinlərarası dialoqun Azərbaycanda qədim tarixi vardır və müasir Azərbaycan dövləti bu ənənələrə sadiqdir, burada bütün dinlərin nümayəndələri sərbəst yaşayır, fəaliyyət göstərir, öz dini ayinlərini icra edirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmi saytında yer alan məlumata görə, dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan (01.09.2009-cu il) sonra 942 dini qurum qeydiyyatdan keçmişdir. Konfessional baxımdan onların 907-si İslam, 35-i isə qeyri-islam (xristian - 24; yəhudi - 8; krişna - 1; bəhai - 2) təmayüllüdür. 2017-ci ildə dini təhsil müəssisələrinin (kollec) dövlət qeydiyyatına alınması prosesi başlayandan 10 dini təhsil müəssisəsi dövlət qeydiyyatından keçib. Belə ki, ölkə ərazisində 2250 məscid mövcuddur, onlardan 136-sı Bakı şəhərində yerləşir. Bununla yanaşı, ölkəmizdə 14 kilsə, 7 sinaqoq da mövcuddur. Paytaxt və bölgələrdə 748 pir və ziyarətgah fəaliyyət göstərir. Onlardan 25-i Bakı-Abşeron bölgəsində yerləşir.



## Azərbaycanda tolerantlıq mühiti hər zaman ən yüksək səviyyədədir

Multikulturalizm elə bir siyasətdir ki, o, mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır. Bu, ölkə əhalisinin etnik irqi və dini müxtəlifliyindən asılı olmayaraq, onların hüquq və azadlıqlarına hörmətlə əlaqədardır. Multikultural cəmiyyətdə hər bir vətəndaş öz mədəniyyətini, dilini, ənənəsini, etnik və dini dəyərlərini inkişaf etdirmək, ana dilində məktəb açmaq, qəzet və jurnal dərc etdirmək sahələrində bərabər hüquqlara malikdir. Multikulturalizm siyasəti assimilyasiyanı inkar edən inteqrasiyaya aparır. Məhz buna görə də bu siyasəti təkcə siyasi elita deyil, eyni zamanda millətin yüksək vəzifə tutmayan digər nümayəndələri ilə yanaşı, milli və dini azlıqlar da dəstəkləyirlər.

Tolerantlıq və multikulturalizm, eyni zamanda, demokratiyanın təməl prinsiplərindən olan vicdan azadlığının təmin edilməsi və qanunun aliliyidir. Vicdan azadlığı, təhsil və elmdə əlçatanlığın olması, insanların sosial və iqtisadi rifahının yüksəlməsi, qanunun aliliyi demokratiyanın əsas göstəricilərindəndir. Bir sözlə, sosial bir hadisə olan multikulturalizm və tolerantlıq həm də cəhalətin, irqçiliyin, ksenofobiyanın süqutu, nəticə etibarilə cəmiyyətdə əmin-amanlıq, bəşəriyyətdə sülh deməkdir. Beləliklə, müxtəlif siyasi, iqtisadi və coğrafi şəraitlərdə yaşayan xalqların ədalətə çıxışı məhz çoxmədəniyyətliliyin təmin edilməsindən asılıdır. Çünki multikulturalizmin olması cəmiyyətdə bərabərliyin, demokratiyanın, tərəqqinin, sosial rifahın, başqa sözlə, ədalətin bərqərar edilməsi deməkdir.

Azərbaycan multikulturalizm dəyərlərini təbliğ edən ölkələrdən biridir. Multikulturalizm Azərbaycanda həm həyat tərzidir, həm də dövlət siyasətidir. Azərbaycanda tolerantlıq mühiti hər zaman ən yüksək səviyyədə olduğu üçün burada multikulturalizm, millətlər və dinlər arasında olan münasibətlərə, dialoqa həsr edilmiş beynəlxalq səviyyəli bir çox tədbirlər, elmi konfranslar keçirilir. Dünyanın müxtəlif ölkələrinin ənənəvi dünya dinlərini təmsil edən 200-dən çox nümayəndənin iştirak etdiyi "Qloballaşma, din, ənənəvi dəyərlər" mövzusunda tədbir 2010-cu ilin aprelində məhz Bakı şəhərində keçirilmişdir. Bunu Azərbaycanın beynəlxalq aləmdə nüfuzu, tolerantlıq mühitinin genişlənməsi və inkişafı ilə əlaqələndirmək olar. 2011-ci ildən başlayaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəxsi təşəbbüsü ilə hər iki ildən bir Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Bu Forumlar UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Avropa Şurası, Avropa Şurasının Şimal-Cənub Mərkəzi, İSESCO, BMT-nin Dünya Turizm Təşkilatının tərəfdaşlığı ilə reallaşdırılır. Bu ayın 14-də Bakıda Dünya dini liderlərinin II Sammiti keçirildi. Azərbaycan bu mötəbər tədbirə ikinci dəfə ev sahibliyi etdi. Bu, bir daha onu göstərir ki, ölkəmiz dinlərarası dialoqun inkişafında önəmli rol oynayır.

## Dini-mədəni müxtəlifliyin harmoniyasına əsaslanan cəmiyyət modeli yaratmaq mümkündür

IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi ilə bağlı qərar isə ölkəmizin İslam həmrəyliyinin möhkəmləndirilməsi sahəsində növbəti əməli addımlar atması üçün əlverişli şərait yaratdı. Azərbaycanda 2015-ci ildə I Avropa Oyunlarının təşkili, 2016-cı ilin "Multikulturalizm ili", 2017-ci ilin "İslam Həmrəyliyi ili" elan olunması və elə həmin IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi rəmzi məna daşıyır.

I Avropa Oyunlarında, eləcə də "Multikulturalizm ili"ndə Azərbaycan özünü dünyaya bir daha tanıtmaq istiqamətində çox işlər gördü. Bu təşəbbüslərin bəhrələrini cəmiyyətimiz hələ zaman-zaman duyub hiss edəcək. Avropada multikulturalizmin real iflası fonunda Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə gedən multikultural hərəkat, əslində, buna qarşı mənəvi, intellektual çağırış idi və bu bədbin fonun qarşılığında dünya mədəniyyətlərarası dialoqun gələcəyi ilə bağlı Azərbaycanın timsalında nikbin bir qütbün formalaşmasına şahid oldu. İslamın sülhsevər mahiyyətinin dünya miqyasında təbliği istiqamətində əməli səylər göstərən Azərbaycan Prezidentinin irəli sürdüyü İslam həmrəyliyi təşəbbüsləri isə yalnız İslam dünyası daxilində deyil, İslam dini ilə digər dinlər arasında həmrəyliyin harmoniyasını ehtiva edir. Bu cür həmahənglik təkcə Azərbaycana deyil, bütün dünyaya, yaxın və uzaq qonşularımıza, Avropada, Yaxın və Uzaq Şərqdə, dünyanın hər yerində gedən mənəvi, mədəni proseslərə çox böyük təsir göstərir.

IV İslam Həmrəyliyi Oyunlarının məhz Azərbaycanda keçirilməsi də elə bu məramın təzahürüdür. Bu mühüm idman tədbirindən sonra Azərbaycan bütün dünyaya nümayiş etdirdi ki, dini-mədəni müxtəlifliyin harmoniyasına əsaslanan cəmiyyət modeli yaratmaq mümkündür. Eyni zamanda nəzərə alaq ki, Azərbaycanın bu istiqamətdə irəli sürərək yerinə yetirdiyi təşəbbüslər qısamüddətli tədbirlərlə bitmir. Dünyada yeni ideyalara yol açan, sağlam düşüncə mühiti yaradan davamlı və çox təsirli proseslərdir. Təsadüfi deyil ki, Azərbaycan multikulturalizmi bir model kimi bu gün bir çox ölkələrdə öyrənilir. Avropanın bir sıra ölkəsində "Azərbaycan multikulturalizmi" fənni tədris edilir. Bu çox ciddi bir nailiyyətdir.

Ümumiyyətlə desək, çoxmillətli Azərbaycan artıq dünyanın nəzərində nümunəvi bir dövlətdir. Ölkəmiz dünyanın multikulturalizm, tolerantlıq, dözümlülük, humanitar əməkdaşlıq mərkəzinə çevrilib və bundan xalqımız da, dövlətimiz də qürur duyur.

***Azər Əlizadə***

*"Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün"*

Hekayə



Mobil İSMAYILOV

# Tanqonun ritmləri altında...

*(əvvəli qəzetimizin 43-cü sayında)*

Qeydiyyatdan sonra axşam Vanda anasını Munirə belə təqdim etdi: "Tanış ol, anamdır. Yəhudi qadını Esmiralda. Dünyanın ən gözəl qadınlarından biri".

Həqiqətən incə görkəmli, xoş sifətli, çox yaraşıqlı qadın idi anası.

... Yenə də hər ikisi "B" kateqoriyasında çıxış edirdilər. İlk turda qələbə qazanan Vanda ardıcıl beş turda məğlub oldu. Məğlubiyyətlərin də əsas səbəbi bu idi ki, Vanda bərabər vəziyyətlərdə heç-heçə təklifindən imtina edir və oyunları davam etdirirdi. Nəticədə də risk edir və uduzurdu. Munirin göstəriciləri qənaətbəxş idi.

Bununla yanaşı turnir boyu Vandada qəribə davranışlar da özünü göstərirdi. İştirakçılar Vandanın qəribəliklərinə əhəmiyyət vermir, hər kəsə elə gəlirdi ki, şahmatçı qızın davranışında üzə çıxan qəribəliklər növbəti şıltaqlıqlardı.

Beşinci məğlubiyyətdən sonra heç nə anlamayan Munir Vanda ilə gəmi gəzintisinə çıxdı. Gözlərinin dərinliyinə kədər çökən Vanda çox həvəssiz görünürdü. Sanki üz-gözünün ifadəsi donmuşdu.

Daha sonra Munir Vandanı restorana şam yeməyinə dəvət etdi. Canlı musiqi də var idi. Lakin nə eşitdiyi musiqi, nə də Munirin romantik söhbətləri ona təsir etmədi. Elə bil hisslə-ri daşlaşmışdı. Kədər dalğın baxışlarından çəkilib getmirdi. Onun gözləri sanki sönmüş kimi görünürdü.

- Sənin gözlərin əvvəlki kimi deyil. Dərdini, sirrini bölüş mənimlə. Nəsə bir problem varsa, birlikdə həll edək. Fikirləş, bəlkə yarışdakı iştirakını dayandırasan, - deyə Munir Vandaya diqqət və qulluq göstərməkdə davam edirdi.



Vanda susub heç nə demirdi. Bu zaman Munir Vandanın xəbəri olmadan tanqo sifariş etdi. Gözlərində yaş gilələnən Vanda qalxmalı oldu. Bu, Praqada onların ilk tanqosu idi. Artıq Munir tanqonu ustalıqla ifa edirdi. Bunu sezən Vanda rəqs edə-edə gülümsəyirdi.

Rəqs bitdi, qayıdıb əyləşdilər.

- Şad oldum ki, sevdiyin rəqsə münasibətin dəyişməyib, - deyə Munir Vandanın əlindən öpdü.

- İstərdim, elə tanqo oynadığım yerdə ölüm. Bu, ən gözəl hadisə olardı.

Qısa sükutdan sonra Vanda sözlərinə davam etdi:

- Elə bil bütün arzularımın üstündən xətt çəkilib. Hərdən heç nə haqqında düşünməmək, heç kimi görməmək, eşitməmək istəyi o qədər güclü olur ki, bayıra çıxmaq belə istəmirəm. Bir sözlə, təklik mənə güc gəlir. Ancaq çalışıram ki, özümü təkliyin qucağına atmayım. Nə yaxşı ki, sən gəlib çıxdın.

Onlar restoranı tərk etdikdən sonra Vanda Muniri evə dəvət etdi. Anasını xəbərdar etdiyinə görə şirniyyatlardan ibarət stol hazırlanmışdı. Stola Munirin Bakıdan gətirdiyi nemətlər də qoyulmuşdu.

Təxminən bir saat oturan Munir getmək istədiyini bildirdi. Sifariş olunmuş taksi gələnə qədər Munir Vandanın anası ilə həyətdə bir qədər söhbət etdilər.

- Vandanın səhhətində problemlər erkən başlayıb. Elə gənclik illərinin ilk dövrlərindən. Ərindən ayrıldıqdan sonra isə psixoloji cəhətdən dayanıqlığını itirən kimi oldu. Özünə qapılaraq müəyyən müddət görüşlərdən, ünsiyyətdən qaçmağa başladı. Həkim müdaxiləsindən sonra tədricən hər şey qaydasına düşdü. Moskva turnirindən sonra yenidən səhhəti pisləşməyə doğru getdi. Gündüzlər bir yerdə qərar tuta bilmir, gecələr yatağına od tökülürmüş kimi gözünə yuxu getmir. Yuxuya gedəndə də, qəfil səksənib ayılır. Artıq əsəb xəstəsinə çevrilib. Tez-tez davranışı üzərində nəzarəti itirir, hərdən ən adi şeylərə inanılmaz qızğın reaksiyalar göstərir. Son vaxtlar isə psixoloji durumu daha da gərginləşib, depressiya əlamətləri sürətlə dərinləşib. Əsəblərinin sarsıldığı hiss olunur. İstəmirdim bu yarışda iştirak etsin. Xahiş etdi, hətta yalvardı. Həkimlər qadağan etsələr də, şahmatsız dayana bilmir. Bir də imkan daxilində onu içməyə qoymayın. Bilmirəm, Tanrı qoruyacaqmı...

- Ömür dediyimiz prosesdə yaxşı, pis nə varsa, hamısı birgə yaşanmalıdır. Heç kim bu hala düşməkdən sığortalanmayıb. Axı, onun bu vəziyyətə düşməsi öz istəyi ilə olmayıb. Hər halda acıdır-şirindir, bu, onun taleyidir. Amma çox təəssüflənirəm. Onun qəlbi böyük arzularla, ümidlərlə qanadlanırdı.



Taksinin gəlişi onların söhbətinin bitməsinə səbəb oldu.

Otağına qalxmaq istəməyən Munir otelin qarşısında açıq havada xeyli oturub fikirlərə daldı. Vəziyyət heç də ürəkaçan deyildi. Vandanın gələcəyi nikbin, ümidverici görünmürdü. Elə bu anlarda Munir üzücü hisslər yaşadı. Axı, niyə hərdən dünya adama cansıxıcı gəlir. Keçən il o, düşünürdü ki, tale Vandanın üzünə gülüb. Bəs, niyə bir ildən sonra onun həyatının axarı dəyişdi? Görəsən, onu qarşıda hansı ağrı-acılı, məşəqqətli günlər, sərt sınaqlar gözləyir?

Növbəti tura Vanda gəlib çıxmadı. Telefonu da açmırdı. Munir onun anasına zəng vurdu. Esmiralda bildirdi ki, o, işə gələndə yatmış qızını narahat etmədi. İndi Vanda telefon zənglərinə cavab vermədiyinə görə nigaran qaldığından yoldadır, evə qayıdır.

Axşam Munirə bəlli oldu ki, böyük miqdarda yuxugətirici və sakitləşdirici dərman qəbul edən Vanda evdə halsız, az qala ölüm ayağında aşkar edilib və klinikaya yerləşdirilib. Müəyyən müddət klinikada həkim nəzarəti altında qalması zərurəti yaranıb.

Üç gündən sonra Vandanı palataya köçürdülər. Turnirin bağlanışı bitən kimi Munir klinikaya getdi. Palatanın qarşısında Esmiralda onu qarşıladı və kövrəlmiş halda dedi:

- Vandanı ölümün pəncəsindən güclə xilas etdilər. Heç ümidim yox idi. Düşünürdüm ki, görəsən, bu keşməkeşli taledən gələn sondumu? Həlelik həkimlər yanına heç kimi buraxmırlar. Amma bir neçə dəqiqəliyə girib görüşə bilərsən. İndi mən palata həkimindən xahiş edərəm.

Muniri görən kimi Vanda qalxıb oturdu. Munir də çarpayıda onun yanında əyləşdi. Baxışları bir-birinə dikildi. Birdən Vanda Muniri bərk-bərk qucaqlayıb başını onun köksünə sıxdı. Həyəcandanmı, nədənmi əsən əllərini gizlədə bilmirdi. Vanda, az qala, pıçıltı ilə dedi ki, telefonda tanqonu qoşsun. Tanqoya qulaq asdıqca, Vandanın göz yaşları sifətinə, boğazına axdı. Kədərli anlar dərin qüssə yaratdı. Baxışlar da vidalaşdı. Həkimin gəlişindən sonra Munir palatanı tərk etməli oldu.

Klinikadan çıxanda Munir çox sarsılmışdı. Gördükləri mənzərə təsəvvür etdiyindən də pis idi. Axı, hardan gəldi bu xəstəlik? O, Vandanın sağalması üçün əlindən gələni etməyə hazır idi. Amma necə? Onun müalicəsinə, xəstəlikdən qurtulmasına görə nə edə bilərdi? Fikirləşdikləri nəyisə dəyişə biləcəkmi? O, özünü bir anlığa gücsüz hesab elədi. Deyəsən, Vandanın həyat şamı sönməyə başlamışdı.

Munir haradan biləydi ki, palata onların son görüşü, orada yaşanan acı dəqiqələr isə vida notları olacaq.

Əslində Munir qabaqcadan planlaşdırmışdı ki, yarışdan sonra Vanda ilə qonşu ölkələrin birinə gəzməyə getsin. Ağlına gəlməzdi ki, bir il bundan əvvəl başlanmış sevgi romanı belə tez bitəcək. O, fikirlərin, xəyalların qoynunda ötən çağlara döndü. Yaddaşında unuda bilmədiyi xatirələr dil açmışdı. Xatirələr gözlərinin önündə bir-bir canlanırdı.

Bakıya qayıdış bileti hələ bir həftə sonraya idi. Fikirləşdi ki, bir neçə günlüyə Almaniyanın yaxın şəhərlərinə baş vurub qayıda bilər. Belə də etdi. Vaxt olduğuna görə Düsseldorf və Köln şəhərlərində beş gün qaldı. Bu müddət ərzində bir neçə dəfə Vandanın anasına zəng vurmaq istəsə də, hər dəfə tərəddüd etdi. Bakıya uçuş bileti Praqadan olduğuna görə yenidən qatarla həmin şəhərə qayıtdı. Praqaya çatan kimi dəmiryolu vağzalından Vandanın anasının nömrəsini yığdı.

Telefonda ağlayan Esmiraldanın cavabı çox kədərli oldu:

-Vandanın palatada qalmağına lüzum olmadı. Vəziyyəti elə bir həddə çatdı ki, evə də məsləhət bilmədilər. Onu ruhi xəstələr klinikasına yerləşdirdik. Ömrünü orada nə qədər keçirəcək, deyə bilmərəm. Onsuz da həyatını xaotik formada, əzablar içində sürürdü. Daha olan olub. Gənc yaşında düçar olduğu xəstəlikdən çilik-çilik oldu. Buz bağlamış şüşə qaynar yerə düşəndə necə çiliklənirsə...

O, sözlərini tamamlaya bilmədi. Üzr istəyib telefonu söndürdü.

... Havadan baş açmaq olmurdu. Gah günəş çox da hündür olmayan dağların arxasından boylanır, gah da yağış yağırdı. Xəbər Munirə o qədər təsir etmişdi ki, o, islandığının fərqində deyildi. Vandanın həyatında baş qaldırmış qəfil küləklər fəlakətə çevrilmiş və hər şeyi dağıtmışdı. Vandanın şirin arzuları məhv olmuşdu.

Yağışın altında piyada gedən Munir düşünürdü ki, əbəs yerə demirlər ki, qasırğalar, tufanlar təkcə təbiətdə olmur. Hər ömür də sakit, rəvan getmir. Taleyin elə gözlənilməz dəyişiklikləri baş verir ki, anlamaq mümkün olmur.

Yağışlı havada parkdakı oturacaqların birində əyləşdi. Görəsən, bir daha onu görmək mümkün olacaqmı... ? O, qismən də olsa, sağala biləcəkmi...? Nağıla bənzər gözəlliyin altında yatan acı gerçəkliklərlə dolu bir taleli həyat yaşayan Vanda...

Yağış da dərin düşüncələrə qərq olan Munirin məyusluğunu, narahatlığını yuyub apara bilmədi.

... Munir hava limanında bir daha telefonundakı tanqo melodiyalarını dinləmək istədi. Və qulaqlarına sanki Vandanın ehtiraslı qəhqəhələrinin səsi gəldi. Elə tanqonun ritmləri altında da təyyarəyə doğru addımladı...

# Olimpiya Oyunlarından xatirələr

***Dünyada ən böyük idman yarışlarından biri Olimpiya Oyunları hesab olunur. Əsasında dostluq, qardaşlıq, xalqlar arasında əməkdaşlıq ideyası dayanan bu Oyunları idmansevərlər maraqla izləyirlər. 4 ildən bir keçirilən möhtəşəm və nəhəng idman tədbiri tarixə yalnız qalibləri ilə deyil, həmçinin Oyunlarda yaşanan qeyri-adi və maraqlı hadisələrlə də həkk olunub.***

***"Olimpiya dünyası" qəzetinin budəfəki sayında Olimpiya Oyunları zamanı baş verən bir neçə maraqlı hadisəni sizin diqqətinizə çatdırırıq.***

## Oğurlanmış ayaqqabılar

1912-ci il iyulun 13-də İsveçin paytaxtı Stokholmda keçirilən Olimpiya Oyunlarında amerikalı idmançı Cim Torpun ayaqqabıları müəmmalı şəkildə oğurlanıb. Atletin bir neçə saatdan



sonra Olimpiya Oyunlarında iştirak etməsi, bu hadisəni əsl faciəyə çevirib. Müasir dövrdə bu problem idman mağazasından ayaqqabı almaqla həll oluna bilərdi. Lakin həmin dövrdə ayaqqabılar uzun müddətə hazırlandığından, atlet çıxılmaz vəziyyətlə üzləşib. Problemin ciddiliyinə baxmayaraq, Cin Torp geri çəkilməyib. O, təsadüfən yaxınlıqda yerləşən zibil qutusundan bir cüt idman ayaqqabısı tapıb, geyinib. Lakin ayaqqabının biri digərindən çox böyük olduğundan, idmançı bir ayağına əlavə corab geyinmək məcburiyyətində qalıb. İdmançının bu görünüşü, onu gülüş hədəfinə çevirib. Şayiələrə görə, çempionluğa iddialı olan əsas rəqibi isveçli Huqo Vislander birinci mərhələdə məğlubiyyətini belə əsaslandırmışdı: "Gülməkdən özümü saxlaya bilmirdim. Buna görə də gücümü toplayıb qaçmaqda çətinlik çəkirdim".

Qeyd edək ki, Cim Torp həmin oyunlarda fərqli ayaqqabılarda iki qızıl medal qazanıb.

## Qəhvə satan atletlər

1932-ci ildə böyük maliyyə böhranı ilə əlaqədar Braziliya dövləti idmançılarını Los-Ancelesdə keçirilən X Olimpiya Oyunlarına göndərməyə vəsait tapa bilmirdi. Təşkilatçılar yeganə çıxış yolunu idmançıları Amerikaya qəhvə aparan gəmiyə yerləşdirməkdə gördülər. 82 nəfərdən ibarət olan komandanın heyətinə yol boyu həmin qəhvələrdən satmaq əmri verildi. Gəmi San-Pedro limanına çatanda isə sahilə enən hər bir şəxsdən bir dollar vəsait tutulacağı bildirilirdi. Bütün heyət üçün ödəniş etməyə pul olmadığından sahilə yalnız Oyunlarda medal qazanmaq




şansı yüksək olan idmançılar endirildi. Daha sonra gəmi San-Fransiskoya yola düşdü. Orada biraz da qəhvə satılandan sonra gəmi yenidən geri qayıtdı və atletlərin bir hissəsi də San-Pedro sahilinə endi. Ümumilikdə, 15 braziliyalı atlet Los-Ancelesə çata bilmədi.

Qeyd edək ki, çətinlik bahasına Olimpiya Oyunlarına yollanan braziliyalı idmançılardan heç biri bu yarışlarda medal qazana bilmədilər.

## Tarixi dəyişən 3 saniyə

1972-ci il sentyabrın 9-da Almaniyanın Münhen şəhərində keçirilən XX Yay Olimpiya Oyunlarında baş verən hadisə, dünya idman tarixinə əbədi həkk olundu. Buna səbəb SSRİ və ABŞ-ın kişi komandaları arasında keçirilən basketbol üzrə final qarşılaşması idi. Oyunun gedişatında amerikalı basketbolçular 50:49 hesabı ilə irəlidə olsalar da, matçın bitməsinə üç saniyə qalmış hər şey dəyişdi. Son saniyələrdə Sovetlər Birliyinin yığma komandasının məşqçisi Vladimir Kondraşın fasilə istəsə də, onun müraciəti hakimlər tərəfindən qeydə alınmadı. Oyunun vaxtı bitdi və amerikalılar coşqu ilə qələbəni qeyd etməyə başladılar. Lakin SSRİ komandasının məşqçisinin etirazından sonra Beynəlxalq Basketbol Assosiyasiyasının sədri Uilyam Cons oyuna 3 saniyə əlavə olunmasını tələb etdi. Amma vaxta nəzarət edən hakim səhvə yol verdi. Belə ki, oyunun vaxtı basketbolçunun ilk ötürməyə toxunması ilə deyil, topun meydana daxil olması ilə başladı. SSRİ komandası



yenə də hücumu başa vura bilmədi. Bu dəfə vaxtı göstərən tablo xarab oldu və görüşün bitməsinə 50 saniyə qaldığını göstərdi. Tablo təmir olundu və SSRİ komandasına 3 saniyəlik daha bir şans verildi. Üçüncü cəhd isə uğurlu oldu. İvan Edeşko topu Aleksandr Belova ötürdü və top səbətə daxil oldu - 51:50. Nəhayət, 24 saatdan sonra SSRİ komandasına həndbol zalında qızıl medal təqdim olundu. ABŞ komandası isə gümüş medaldan imtina edərək, mükafatlandırma mərasiminə gəlmədi. Amerikalıların gümüş medalı, hələ də Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Lozannadakı ofisində saxlanılır. ABŞ komandasının keçmiş kapitanı Kenni Devis həyat yoldaşına və övladlarına Münhen Olimpiya Oyunlarının gümüş medalını heç bir halda qəbul etməmələrini vəsiyyət etmişdi. Bununla həmin vaxt amerikalılar məğlubiyyəti qəbul etmədiklərini nümayiş etdirmişdilər.

## Əlil idmançıdan qeyri-adi çıxış

1904-cü ildə keçirilən III Yay Olimpiya Oyunları tarixdə qeyri-adi qələbələrlə yadda qalıb. ABŞ-ın Sent-Luis şəhərində təşkil olunan



Oyunlarda alman əsilli amerikalı idmançı Corc Eyser qeyri adi çıxışı ilə yadda qalıb. Yarışda idman gimnastikası üzrə çıxış edən Corc bir gündə Olimpiya Oyunlarının 6 medalını qazanıb. İdmançının unikallığı bununla bitmir. Məsələ burasındadır ki, adi atletlər ilə yarışan Eyser belə yüksək qələbələri əlil olaraq qazanıb. Belə ki, o, gənc yaşlarında qatarın altında qalaraq sol ayağını itirib.

Tirlə hərəkətlərdə tullanma yarışlarında Eyser 39 xal toplayaraq, bürünc medala sahib çıxıb. İdmançı növbəti iki gümüş medalı isə atçılıq və çoxnövçülük yarışlarında qazanıb. Sonra dayaqla tullanma yarışlarında gücünü sınayan Corc bu mübarizədən aktivinə 36 xal yazdıraraq, birinci pillədə qərarlaşmışdı. Əlil idmançı növbəti iki qızıl medalını kanatla dırmanma yarışlarında (7 saniyə) və idman gimnastikasının paralel qollar üzrə mübarizəsində əldə edib.

## Dünyanı kövrəldən göz yaşı

1980-ci ildə Rusiyanın paytaxtı Moskva şəhərində keçirilən XXII Yay Olimpiya Oyunları idmansevərlərin yaddaşında xüsusilə qalıb. Daha doğrusu, Oyunların simvolu olan rəngli kartonlardan hazırlanmış ayı və insanları kövrəldən göz yaşı. Lakin çoxları bunun təsadüfən alındığını bilmirdi. Belə ki, məşq zamanı karton (şit) tutanlardan biri onun qara deyil, ağ tərəfini qaldırıb. Təşkilatçı ona kartonun digər tərəfini tutmasını



tapşırıb. Bunu yalnış anlayan həmin sırada olan bütün insanlar kartonlarını çevirməyə başlayıblar. Bununla da, dəyişilən rəngli kartonlar, ayının gözündən yaş damcısının axmasını xatırladıb. Bu ideya təşkilatçıların xoşuna gəlib və oyunların bağlanış mərasiminin proqramına əlavə etmək qərarına gəliblər. Beləliklə, bağlanış mərasimində ayının gözündən axan yaş damcısı və hava şarları ilə səmaya buraxılan oyuncaq ayı XXII Yay Olimpiya Oyunlarının əsas simvolu kimi yaddaşlarda qalıb.

***Hazırladı:***
***Türkay Niftəliyeva***

# Braziliya Futbol Konfederasiyasının keçmiş başçısı diskvalifikasiya edilib

Beynəlxalq Futbol Federasiyaları Assosiasiyası (FIFA) Braziliya Futbol Konfederasiyasının (CBF) sabiq prezidenti Rikardo Teyşeyranı rüşvətxorluğa görə beynəlxalq və milli səviyyədə futbolla bağlı hər hansı fəaliyyətdən ömürlük kənarlaşdırıb. Bu barədə məlumatı FİFA-nın mətbuat xidməti yayıb. FİFA-nın etika üzrə müstəqil komitəsinin hakimlər palatası 72 yaşlı Teyşeyranı qurumun etika kodeksini pozmaqda təqsirli bilib. Funksioner 2006-2012-ci illər dövründə CBF, Cənubi Amerika Futbol Konfederasiyası (KONMEBOL), habelə Şimali və Mərkəzi Amerika, Karib Hövzəsi Ölkələrinin Futbol Konfederasiyasının (KONKAKAF) himayəsi ilə keçirilən turnirlərə televiziya və marketinq hüquqlarının satışına dair korrupsiya sxemi ilə bağlıdır.

Bundan əlavə, Teyşeyranın üzərinə 1 milyon İsveçrə frankı (909 min Avro) məbləğində cərimə qoyulub. Onun diskvalifikasiyası haqqında qərar noyabrın 29-da qüvvəyə minib.

Teyşeyra 1981-2012-ci illərdə CBF-ə başçılıq edib. Braziliyalı FİFA və CONMEBOL-un icraiyyə komitələrinə də daxil olub.

# Afrikada stadionların tikintisinə vəsait toplanacaq

Beynəlxalq Futbol Federasiyaları Assosiasiyasının (FİFA) prezidenti Canni İnfantino hər bir Afrika ölkəsində FİFA standartlarına cavab verən azı bir stadionun tikintisi üçün 1 milyard dollar vəsait toplamaq niyyətini açıqlayıb. C.İnfantino Konqo Demokratik Respublikasının Lubumbaşi şəhərində Konqonun "TP Mazembe" futbol klubunun 80 illiyinin qeyd edilməsi münasibətilə bayram tədbirində çıxış edib.

O deyib: "Biz qarşıya Afrikanı ən yüksək səviyyəyə çatdırmaq və qitənin malik olduğu böyük futbolçuları dünyaya göstərmək məqsədi qoymuşuq. Biz buna infrastruktur yaratmaq, futbol hakimləri yetişdirmək və böyük yarışlar keçirmək hesabına nail olmaq niyyətindəyik".

FİFA prezidenti işarə edib ki, Afrika Liqasının yaradılması imkanları nəzərdən keçirilir. Liqada Afrikanın ən yaxşı klubları




yarışacaq. İnfantino infrastruktur məsələlərinin həlli üçün Afrika ölkələrində müasir stadionların tikintisi üçün şəxsi kapitalı səfərbər etmək niyyətini elan edib.



# Luis Hamilton cari mövsümü qələbə ilə başa vurub

Formula 1 üzrə dünya çempionatının 2019-cu il mövsümünə dekabrın 1-də Əbu-Dabidə yekun vurulub. Mövsümün sonuncu yarışında "Mersedes"in pilotu Luis Hamilton birinci olub. "Red Bull"un üzvü Maks Ferstappen yarışı ikinci, "Ferrari"nin pilotu Şarl Lekler isə üçüncü pillədə başa vurublar.

Qeyd edək ki, L.Hamilton daha əvvəl 6 qat dünya çempionluğunu təmin edib. "Mercedes" isə Konstruktorlar Kubokunun qalibi olub.



Dünya_idmanı

# İl başa çatana qədər Messi Bağdada çata biləcək?



2019-cu ildə ən çox qol vuran futbolçuların siyahısı tərtib edilib. Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (İFFHS) il ərzində milli çempionatlarda ən çox qol vuran oyunçuların siyahısını açıqlayıb. Cədvələ Qətərin "Əl-Sədd" klubunda çıxış edən əlcəzairli Bağdad Bunedja başçılıq edir. Onun aktivində 39 qol var.

**Siyahıda 22 və daha çox qol vuran futbolçular yer alıb:**

1. Bağdad Bunedja (Əlcəzair/ "Əl-Sədd") - 39 qol
2. Lionel Messi (Argentina/ "Barselona") - 36
3. Kilian Mbappe (Fransa/PSJ) - 33
4. Mbaye Dianye (Seneqal/ "Qalatasaray") - 30
5. Duşan Tadiç (Serbiya/ "Ayaks") - 28



6. Luk de Yonq (Hollandiya/PSV) - 28
7. Fabio Kvalyarella (İtaliya/ "Sampdoriya") - 26
8. Haris Seferoviç (İsveçrə/ "Benfika") - 23
9. Jillaum Oaru (Fransa/ "Bern") - 23
10. Robert Levandovski (Polşa/ "Bavariya") - 22
11. Nikola Pepe (Fil Dişi Sahili/ "Lill") - 22
12. Pyerr-Emerik Obameyanq (Qabon/ "Arsenal") - 22
13. Kşiştof Pyontek (Polşa/ "Cenoa", "Milan") - 22
14. Duvan Zapata (Kolumbiya/ "Atalanta") - 22
15. Məhəmməd Salah (Misir/ "Liverpul") - 22
16. Sadio Mane (Seneqal/ "Liverpul") - 22



***Üfüqi***

1. Elitar idman növü. 3. Mərkəz yarımmüdafiəçisi. 4. "Antverpen"in Mali əsilli futbolçusu. 6....tapança. 8. Formula 1-də komanda. 9. Beysbolu xatırladan komanda idman növü. 10. Şahmatda fiqur. 11. Avropada nəşr olunan idman qəzeti. 13. Futbol termini. 17. İdman geyimləri istehsal edən şirkət. 19. Peşəkar basketbolçuların seçimi.

***Şaquli***

2. Sovet tenoru, "Dinamo"nun gürcü futbolçusu. 5. Ev oyunlarının "Vanda Metropolitano"da keçirən Madrid klubu. 7. Atletika yarışlarında qədim növ. 8. "Zalsburq"un norveçli ulduzu. 11. Azərbaycan Premyer-Liqasında çıxış edən komanda. 12. III İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edən şəhər. 14. Sumoçuların saç düzümü. 15. Ləqəbi "qurbağalar" olan La Liqa təmsilçisi. 16. Qədim döyüş növü. 18. İdman mükafatı.

# *MMA-nın ən cazibədar döyüşçüləri*



Döyüş dedikdə insanın ağlına güc, zərbə, zəhm kimi anlayışlar gəlir. Lakin zərif cinsin nümayəndələri ilk baxışdan kobud görünən idman növünə də özünəməxsus incəlik əlavə edirlər. Beləliklə, qarışıq döyüş oyunlarında (MMA) çıxış edən ən cazibədar xanım döyüşçülərin siyahısı məlum olub. Belə ki, birinci pillədə amerikalı Cın Yu Frey yer alıb. 34 yaşlı gözəlin aktivində səkkiz qələbə və dörd məğlubiyyət var. İkinci yerə mütləq döyüş çempionatında (UFC) çıxış edən 25 yaşlı Peyc Vanzant sahiblənib. İlk üçlüyü Mişel Uterson tamamlayır.

olimpnews.az - sizin saytınız




## Dərsi Mourinyodan üstün tutan qəhrəman şagird

Çempionlar Liqasının qrup mərhələsində keçirilən "Tottenhem" - "Olimpiakos" matçında Mourinyonun topu sürətli şəkildə oyuna daxil etdiyinə görə təşəkkür etdiyi bolboy (topdaşıyan uşaq) maraqlı açıqlamalar verib. Baş verənlərə inana bilmədiyini deyən 15 yaşlı Kallum Heyenes Mourinyonun onu paltardəyişmə otağına dəvət etdiyini, ancaq dərslərinə görə evə tələsdiyi üçün bu təklifə yox cavabı verdiyini bildirib: "Mourinyonun təklifini qəbul etməməyimin səbəbi səhər riyaziyyat imtahanımın olması idi. Evə qayıdarkən yol boyunca dərs oxumuşdum". Xatırladaq ki, "Tottenhem"in 4:2 hesabı ilə qalib gəldiyi matçda bolboy autu başlamaq üçün topu dərhal Serju Oryeyə atıb. London klubu hesabı 2:2 edib.

Sabunçu rayon Gənclər İdman İdarəsinin kollektivi idarənin rəisi Rakif Əliyevə, atası

**Hümbət Əliyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

"Olimpiya dünyası" qəzetinin kollektivi Sabunçu rayon Gənclər İdman İdarəsinin rəisi Rakif Əliyevə, atası

**Hümbət Əliyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

Olimpiya dünyası

Baş redaktorun müavini:
A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19